# AZƏRBAYCAN RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

## Vətən müharibəsi iştirakçılarına "Müharibə veteranı" adının verilməsi işinin təşkili üzrə Komissiyanın yaradılması barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Vətən müharibəsi iştirakçılarına "Müharibə veteranı" adının verilməsi işinin təşkili üzrə aşağıdakı tərkibdə Komissiya yaradılsın:

**Komissiyanın sədri**

Yaqub Eyyubov - Azərbaycan Respublikası Baş nazirinin birinci müavini

**Komissiya sədrinin müavini**

Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Təhlükəsizlik, müdafiə və səfərbərlik şöbəsinin müdiri

**Komissiyanın üzvləri:**

Azərbaycan Respublikası müdafiə nazirinin müavini
Azərbaycan Respublikası daxili işlər nazirinin müavini
Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini
Azərbaycan Respublikası ədliyyə nazirinin müavini

Azərbaycan Respublikası maliyyə nazirinin müavini

Azərbaycan Respublikası əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini

Azərbaycan Respublikası səhiyyə nazirinin müavini

Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisinin müavini

Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin rəisinin müavini

Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin rəisinin müavini

Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin rəisinin müavini

Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisinin müavini.

2. Komissiyaya tapşırılsın ki, Vətən müharibəsi iştirakçılarına "Müharibə veteranı" adının verilməsi üçün müharibə iştirakçılarının siyahısını müəyyən etsin və müvafiq təkliflərini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Müəyyən edilsin ki:

3.1. Vətən müharibəsi iştirakçılarına qanunvericiliyə uyğun olaraq "Müharibə veteranı" adı Komissiyanın müəyyən etdiyi siyahı nəzərə alınmaqla verilir;

3.2. Komissiya öz fəaliyyətinə müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada cəlb edə və işçi qruplar yarada bilər.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 30 yanvar 2021-ci il

№ 24